# LEGISLATION AND ITS SYSTEMATIZATION

**Habil Gurbanov** [1]

**UDC** 34:340.14
**LBC** 67.3

**Keywords:**

State policy
Legislation
Public relations
Lawmaking
Normative legal acts
Legal regulation

**ABSTRACT**

The value of the law grows in direct ratio to its real role in the life of society and, among other directions, brings to the fore the tradition of its supremacy. Correct observance of the law by all is the key pillar of strengthening the state and its relations with its own bodies and citizens. The purpose of the legislative specialization process is to ensure the gradually increasing "division of labor" between factors in the legal and in the legislative system. As a result, certain norms are focused on the performance of a particular operation.

Legislation is a form of law and one of the main sources of its development. Its system, as an inter-related complex of normative legal acts regulating certain spheres of public life and the life of the state, allows to imagine the regulatory regiment of the country. Systematization of legislation, as one of the most important measures of the state in the field of legal policy, contributes to the development and improvement of the legal system and the legislative system of the country as a whole.

[1]. The chairman of the Free Trade Union of ANAS. Doctor of law sciences, professor, professorqurbanov@yandex.com

*Received: 24.05.2021*
*Accepted: 07.08.2021*

ISSN: 2790-0029 (Print)
ISSN: 2790-0037 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 2, Say 3, Sıra 5, 2021, 7-15

# QANUNVERİCİLİK VƏ ONUN SİSTEMLƏŞDİRİLMƏSİ

**Habil Qurbanov**[1]

**UOT** 34:340.14
**KBT** 67.3

**Açar sözlər:**

Dövlət siyasəti

Qanunvericilik

İctimai münasibətlər

Hüquqyaratma

Normativ-hüquqi aktlar

Hüquqi tənzimetmə

## ANNOTASİYA

Qanunun dəyəri onun cəmiyyət həyatındakı həqiqi rolu ilə birbaşa proporsional şəkildə yüksəlməyə başlayır və onun alilik ənənəsini digər istiqamətlər sırasında ön plana çıxarır. Qanunun hamı tərəfindən və dürüst icra olunması dövlətin və onun öz orqanları ilə, vətəndaşlarla qarşılıqlı münasibətlərinin möhkəmlənməsinin təməl daşıdır. Qanunvericiliyin ixtisaslaşması prosesinin təyinatı ondan ibarətdir ki, həm hüquq sistemində, həm də qanunvericilik sistemində göstərişlər arasında "əmək bölgüsü" baş verir və tədricən güclənir. Bunun da nəticəsində ayrı-ayrı normalar bu və ya digər əməliyyatların yerinə yetirilməsi istiqamətində ixtisaslaşmağa başlayır.

Qanunvericilik hüququn forması və onun inkişafının prinsipial mənbələrindən biridir. Onun sosial həyatın və dövlət həyatının müəyyən sahələrini tənzimləyən normativ-hüquqi aktlarının qarşılıqlı əlaqədə olan məcmusu kimi sistemi isə ölkənin normativ kütləsini təsəvvür etməyə imkan verir. Qanunvericiliyin sistemləşdirilməsi dövlətin hüquq siyasəti sahəsində qarşıya qoyduğu mühüm ümumdövlət əhəmiyyətli tədbirlərdən biri olmaq etibarilə bütövlükdə ölkənin hüquq sisteminin və qanunvericilik sisteminin inkişafına və daha da təkmilləşdirilməsinə xidmət edir.

---

[1]. AMEA Azad Həmkarlar İttifaqının sədri, h.ü.e.d., professor
professorqurbanov@yandex.com

*Məqalə redaksiyaya daxil olmuşdur: 24.05.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 31.06.2021*
*Çapa qəbul edilmişdir: 07.08.2021*

# ЗАКОНОДАТЕЛЬСТВО И ЕГО СИСТЕМАТИЗАЦИЯ

**Габил Курбанов**[1]

**УДК** 34:340.14
**ББК** 67.3

**Ключевые слова:**

Государственная политика

Законодательство

Общественные отношения

Правотворчество

Нормативно-правовые акты

Правовое регулирование

## АННОТАЦИЯ

Ценность закона вырастает прямо пропорционально его реальной роли в жизни общества и, среди других направлений, выдвигает на передний план традицию его верховенства. Правильное выполнение всеми закона - краеугольный камень укрепления государства и его отношений с собственными органами и гражданами. Цель процесса специализации законодательства состоит в том, чтобы как в правовой системе, так и в законодательной системе существовало постепенно усиливающееся «разделение труда» между показателями. В результате этого определенные нормы начинают специализироваться на выполнении той или иной операции.

Законодательство - это форма права и один из основных источников его развития. Его система как взаимосвязанный комплекс нормативно-правовых актов, регулирующих отдельные сферы общественной жизни и жизни государства, позволяет представить себе нормативную массу страны. Систематизация законодательства, как одна из важнейших мер государства в области правовой политики, способствует развитию и совершенствованию правовой системы и законодательной системы страны в целом.

[1]. Д. ю. н., профессор, председатель Независимого, Профсоюза работников НАНА
professorqurbanov@yandex.com

## GİRİŞ

XX yüzilliyin sonu və XXI yüzilliyin başlanğıcında Azərbaycan cəmiyyətində baş vermiş dəyişikliklər prosesi öz əksini sosial-hüquqi xarakterli çoxsaylı qanunauyğunluqların fəaliyyətində tapmışdır. Azərbaycanın hüquqi dövlət quruculuğu yolunda yeni sosial-iqtisadi, siyasi və mənəvi zəminlərin formalaşması ilə eyni vaxtda onun təkmilləşməsi və tərəqqi etməsi ənənələrinin normativ materialının məzmunu da yeniləşməkdədir.

Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi və inkişafı məsələləri ölkənin hüquqşünas-alimlərinin həmişə diqqət mərkəzindədir. Bu da aşağıdakı zəruriyyətlərlə izah oluna bilər:

- cəmiyyət həyatının bütün sferalarında qanunun aliliyinin ciddi təmin edilməsi;
- qanunvericiliyin ixtisaslaşdırılması, unifikasiyası və intensifikasiyası, onun elmi əsaslarının möhkəmləndirilməsi;
- qanunvericiliyin strukturunda ziddiyyətlərin aradan qaldırılması və onun rəqabət qabiliyyətliliyinin artırılması;
- qanunvericiliyin məzmunundakı texniki-hüquqi göstərişlər kütləsinin həcminin yüksəldilməsi.

Göstərilən bu inkişaf ənənələrini şərti olaraq aşağıdakı üç böyük qrupa bölmək olar:

1) qanunvericiliyin prioritetinin, intensifikasiyası və sabitlik meylinin hərtərəfli gücləndirilməsi;

2) qanunvericiliyin, onun müxtəlif təzahür formaları ilə ixtisaslaşdırılması; qanunvericiliyin differensiasiyası, konkretləşdirilməsi və müfəssəlləşdirilməsinin nəzəriyyə və praktikasının əlaqələndirilməsi;

3) qanunvericiliyin hüquqi unifikasiyası, onun daha da universallaşdırılması və kompleks normativ-hüquqi aktlartın işlənib hazırlanması.

Bu ənənələr iyerarxiyasında mərkəzi yer qanunvericiliyin prioritetinin gücləndirilməsinə məxsusdur. Qanunvericiliyin prioriteti yeni dövlət siyasətinin, o cümlədəndövlətin hüquq siyasətinin yüksək səmərəliliklə təmin edilməsinin magistral xəttini təşkil edir. Bunun sərbəst iqtisadi münasibətlərin (xüsusilə azad sahibkarlığın möhkəmləndirilməsi, insanın, vətəndaşın hüquq və azadlıqlarının hərtərəfli mühafizəsi sahəsində mühüm əhəmiyyəti vardır.

Qanunvericiliyin hərtərəfli yeniləşdirilməsi, eləcə də onun köhnəliklərdən, tör-töküntülərdən və inzibati-amiranə göstərişlərdən təmizlənməsi bu gün qarşıda duran mühüm vəzifələrdən biridir. Belə yeniləşmənin zəruriliyi qanunvericiliyə tənzimetmə və idarəetmə ilə bağlı yeni metodların tətbiqi, dövlət hakimiyyət strukturlarının islahatlaşdırılmasına yeni impuls verən keyfiyyətli üsul və vasitələr kompleksinin daxil edilməsi ilə şərtləşir. Cəmiyyətdəki mövcud sosial-iqtisadi proseslərin ixtisaslaşdırılmasının dərinləşdirilməsi hüquqi dəyişikliklərin fonunu artırır və daha mühüməhəmiyyət kəsb edən qanunvericilik aktlarının qəbuluna kömək edir.

Qanunun dəyəri onun cəmiyyət həyatındakı həqiqi rolu ilə birbaşa proporsional şəkildə yüksəlməyə başlayır və onun alilik ənənəsini digər istiqamətlər sırasında ön plana çıxarır. Zira, həmin ənənəyə sosial yönüm verilməsi səviyyəsi xeyli dərəcədə "qarşılıqlı tabelikdə olan" qanunauyğunluqların məcmu halda uğurlu fəaliyyətindən asılıdır. Məhz bu qanunauyğunluqlar qanunların məzmununu, onların hüquqi təbiətini və təzahür formalarını daha tam şəkildə aşkar edir.

Bundan başqa, qanunun hamı tərəfindən və dürüst icra olunması dövlətin və onun öz orqanları ilə, vətəndaşlarla qarşılıqlı münasibətlərinin möhkəmlənməsinin təməl daşıdır. Məhz belə şəraitdə digər qanunqüvvəli və normativ-hüquqi aktlarla müqayisədə qanunun prioriteti özünü büruzə verir. Qanun dönmədən və olduğu kimi əməl edilməsi onu "kağız üzərində yazılmış hüquq"dan əsl "canlı hüquqi qanun"a çevirir.

**Qanunvericiliyin intensifikasiyası** onun müasir inkişafının səciyyəvi cəhətlərindən biridir. Bu isə öz növbəsində ictimai münasibətlərin hüquqi cəhətdən daha düzgün, mükəmməl və hərtərəfli tənzimlənməsinə kömək edir. Qanunvericiliyin intensifikasiyası yeni normativ-hüquqi aktların verilməsi, qüvvədəolan qanunvericiliyin keyfiyyətinin yüksəldilməsi və onun elmi əsaslandırılmasının gücləndirilməsi hesabına gerçəkləşdirilir. İntensifikasiya prosesi ölkənin qanunvericilik kütləsini özündəehtiva edən "ehtiyatlar"dan və digər daxili imkanlardan səmərəli istifadə etməyə istiqamətləndirilmişdir.

Qanunvericiliyin intensifikasiyasının səviyyəsi xeyli dərəcədə həm də subyektiv amillərdən asılıdır. Belə asılılıq ən azı iki istiqamətdə təzahür edir. Birincisi, o, özünü hüquqyaratma sferasında – səlahiyyətli orqanlar tərəfindən dövrün ruhuna və tələblərinə uyğun normativ-hüquqi aktların verilməsində büruzə verir. Bu istiqamətdəki hüquqyaratmanı**"əməli hüquqyaradıcılıq"** da adlandırmaq olar. İkincisi, o, hüququ tətbiqetmə sferasında özünügöstərir ki, bu da hüquqi aktlardan daha savadlı və bütün dolğunluğu ilə istifadəni ehtiva edir. Bunu isə hüququ tətbiqetmə sferasında **"hü-**

**ququ tətbiqetmənin fəallığı”** kimi qiymətləndirmək olar.

Qanunvericiliyin intensifikasiyası prosesi ilə onun **sabitliyinin möhkəmləndirilməsi** ənənəsi qarşılıqlı təsirdədir. Sabitliyi olmayan qanunvericilik ictimai münasibətləri tənzimetmənin daimi sistemi kimi mövcud ola bilməz. Qanunvericiliyin sabitliyi bütövlükdə hüquq sistemində və hüquqi sistemdə gərginliyin aradan qaldırılmasına, qanunvericiliyin öz daxilində təzahür edə bilən və edən ziddiyyətlərin zəiflədilməsinə xidmət edir.

Hər bir demokratik dövlətdə qanunvericiliyin sabitliyi bir sıra amillərin köməyilə təmin olunur. Həmin amilləri şərti olaraq aşağıdakı maddi və xüsusi amillərə bölmək olar:

1) **maddi amillərə** dövlətin sosial-iqtisadi və siyasi sabitliyi aiddir. Bu isə özündə konkret olaraq aşağıdakıları ehtiva edir:

- dövlətlə onun orqanları və vətəndaşlar arasında qarşılıqlı münasibətlərin sabitliyi və möhkəmliliyi;
- ən mühüm sosial proseslərin inkişaf xarakterinin perspektivliyi nəzərə alınmaqla, onların qanunvericilik yolu ilə vaxtında tənzimlənməsi;
- ölkədə baş verən iqtisadi dəyişikliklərin məqsədlərinin obyektivliyi və əsaslılığı;
- hüquqi proqnozlaşdırma;

2) **xüsusi amillərə** aşağıdakı şərtləri daxil etmək olar:

- qanuna əsaslanan və onun icrası naminə qanunqüvvəli normativ-hüquqi aktların verilməsi və onların fəaliyyətinin təmin edilməsi;
- hüquqi intensifikasiyanın yüksək səviyyəsi;
- qanunvericilik texnikasının təkmilləşdirilməsi;
- qəbul edilmiş normativ-hüquqi aktlardan düzgün və səmərəli istifadə olunması.

**Hüquqi ixtisaslaşma** prosesi obyektiv surətdə sosial inkişafın çoxplanlı gedişini əks və ölkəmizin sosial gerçəkliklərinin müxtəlif cəhətlərini təcəssümetdirir. Qanunvericiliyin ixtisaslaşmasının rüşeymlərini aşağıdakılar təşkil edir:

1) ictimai əmək bölgüsü;
2) hakimiyyət strukturlarının real legitimləşdirilmiş differensiasiyası;
3) milli dövlət quruluşunun suverenləşməsi.

Qanunvericiliyin ixtisaslaşmasının zəminlərini isə aşağıdakı kimi təsnifləşdirmək olar:

- ixtisaslaşmanın sosial-iqtisadi zəminləri;
- hakimiyyət-idarəetmə (siyasi zəminlər) zəminləri;
- hüquqi zəminlər.

Qanunvericiliyin ixtisaslaşması prosesinin təyinatı ondan ibarətdir ki, həm hüquq sistemində, həm də qanunvericilik sistemində göstərişlər arasında “əmək bölgüsü” baş verir və tədricən güclənir. Bunun da nəticəsində ayrı-ayrı normalar bu və ya digər əməliyyatların yerinə yetirilməsi istiqamətində ixtisaslaşmağa başlayır. Yəni hər bir əməliyyat özünəməxsus və özü üçün münasib olan normalar vasitəsi ilə tənzimlənir. Bu normalar ictimai münasibətlərin orijinallığını, konkret həyati halların və hadisələrin spesifikliyini əks etdirir və öz məcmusunda ixtisaslaşma prosesinin **“xüsusi”** adlandırılan əsasını təşkil edirlər.

Müasir mərhələdə ixtisaslaşma bütün hüquqi kütləni əhatə edir və qanunvericiliyin həm formasına, həm də məzmununa təsir göstərir. Qanunvericiliyin forma və məzmununda ixtisaslaşmanın aşağıdakı növləri ifadə olunur:

1) predmet (sahəvi) ixtisaslaşma;
2) funksional ixtisaslaşma;
3) ərazi ixtisaslaşması;
4) qarışıq ixtisaslaşma.

Adları sadalanan hər bir ixtisaslaşma növü qanunvericilik sistemində öz əlahiddə yerinə malikdir. Onların hər biri qanunvericiliyin məzmununa və quruluşuna özünəməxsus təsirini göstərir. İxtisaslaşmanın növləri hüquqi göstərişlərdə və normativ-hüquqi aktlarda ixtisaslaşma prosesini və onun nəticəsini nə qədər dürüst əks etdirirlərsə, onların realizəsinin həqiqiliyi və səmərəliliyi bir o qədər yüksək olur.

**Qanunvericiliyin unifikasiyası** – bu, öz əhəmiyyəti etibarilə və mənasına görə eynicinsli hüquqi göstərişlərin akkumulyasiyasından ibarət olan ənənələrin əks ixtisaslaşmasıdır. Məhz unifikasiyanın köməyi ilə hüquqi təsir mexanizmi strukturunda mövcud olan narazılıqlar aradan qaldırılır, hüququ tətbiqetmədə özünüdoğrultmayan hüquqi təsir vasitələri ləğv olunur. Buna görə də unifikasiya sosial həyatın müxtəlif sahələrində qanunvericilik tənzimetməsinin həddən artıq mürəkkəbliyi ilə mübarizədə ən səmərəli yollardan biri hesab olunur.

Qanunvericiliyin unifikasiyası qanunvericiliyin ixtisaslaşmasının antipodu olsa da, bu iki hadisə bir-biri ilə sıx qarşılıqlı əlaqədədir və qanunvericiliyin bütünsisteminin mütərəqqi inkişafı prosesinin başlıca istiqamətlərini təşkil edirlər. Unifikasiyanın sərhədlərinin qəlum dərəcədə çevik olmaları reqlamentləşdirici mexanizmin vəziyyətinə və səmərəliliyinə keyfiyyətli təsir göstərir. Çünki belə reqlamentləşdirici mexanizmdə bəzən bir-birinə zidd olan ənənələr toqquşurlar. Həmin

ziddiyyətlərin əsasında həm sosial-iqtisadi, həm də hüquqi xarakterli dialektik əksliklər durur.

Əksliklərin birinci qrupuna (sosial-iqtisadi əksliklərə) aşağıdakılar daxildir:

- istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə uyğun gəlməməsi;

- istehsalla vətəndaşların istehlak tələbatları arasında fərqlərin olması və bu fərqlərin eyni zamanda da təsərrüfatı idarəetmə prosesində təzahürü;

- əmlak bərabərsizliyi.

Əksliklərin ikinci qrupu (hüquqi əksliklər) özündə aşağıdakıları ehtiva edir:

- sosial-iqtisadi əksliklərin qanunvericiliyin daxili proseslərinə aşkar mənfi təsiri;

- qanunvericiliyin mahiyyəti və məzmunu, forması və məzmunu arasında, mahiyyətin özünün daxilində həmin təsirin aşkar olunması.

Beləliklə, müasir Azərbaycan qanunvericiliyinin inkişaf ənənələri onun çoxcəhətli ictimai münasibətləri tənzimləməsi üzrə müxtəlif istiqamətlərinin mürəkkəb və kifayət qədər ziddiyyətli sistemindən ibarətdir.

Deməli, qanunvericilik yurisprudensiyanın və hüquqi praktikanın anlayışı kimi özündə bəzən dövlətdə fəaliyyət göstərən hüquq normalarının bütün məcmusunu ehtiva edərək və yalnız hüquq münasibətlərinin müəyyən sferasını tənzimləyən ayrı-ayrı qanunvericilik aktları ilə məhdudlaşaraq tarixən birmənalı şəkildə izah olunur. Qanunvericiliyin təfsirinin bu qədər çoxcəhətli olması və anlayışın özünündürüst formal-hüquqi məna daşımaqla normativ cəhətdən təsbit edilmiş tərifinin olmaması həm hüquqyaratma, həm də hüququ tətbiqetmə fəaliyyəti üçün müəyyən çətinliklər yaradır.

**"Qanunvericilik" anlayışı haqqında.** Qanunvericiliyin mahiyyəti və istiqaməti haqqında təşəkkül tapmış fikir və mülahizələri cəmləşdirərək, müvafiq izahlar üçüngötürülən meyarlardan asılı olaraq bu anlayışın müxtəlifliyinə diqqət yetirilməsi zəruridir.

**1. Həcminə görə:**

- bu anlayışa ancaq konstitusiyaları, konstitusiya qanunlarını (üzvi qanunları) və adi qanunları (cari qanunları) daxil edən qanunvericiliyin **fövqəlməhdud izahı**;

- özündə qanunları, parlament palatalarının normativ qərarlarını və reqlamentləşdirmə aktları da daxil olmaqla, dövlət başçısının fərmanlarını da ehtiva edən qanunvericilik aktlarının məcmusu kimi **məhdud izahı;**

- bütün ölkə miqyasında əhəmiyyət kəsb edən münasibətləri tənzimləyən normativ-hüquqi aktların və hüququn ümumdövlət əhəmiyyətli digər mənbələrinin məcmusu kimi **geniş izahı;**

- qanunvericilik çərçivəsində toplanan dövlətin hüququnun qüvvədə olan bütün mənbələrinin məcmusundan ibarət **fövgəlgeniş izah.**

**2. Dövlət quruluşuna görə:**

- müstəqil dövlətlərdən ibarət vahid dövlət səviyyəsində qüvvədə olan hüququn mənbələrini birləşdirən **federal qanunvericilik;**

- federasiyanın subyektləri üçün ümumi və xüsusi əhəmiyyətə malik normativ-hüquqi aktların məcmusundan ibarət **regional qanunvericilik**;

- özündəbələdiyyələrlə bağlı normativ-hüquqi aktları ehtiva edən **yerli qanunvericilik;**

- idarə, müəssisə və təşkilatlarda qüvvədə olan normativ-hüquqi aktların kütləsindən ibarət **lokal qanunvericilik**.

**3. Sahəvi anlamda.**

Belə izah hüquqi tənzimetmənin ayrı-ayrı sferalarında qüvvədə olan mühümnormativ-hüquqi aktları əhatə edir. Hüquqi praktikada sahəvi qanunvericiliyin həddən artıq ümumidən ibarət eyni həddə məhdud olan definisiya qismində baxılan adekvat tərifi təşəkkül tapmışdır.

**4. Hüquq sistemlərinə görə:**

- dövlətləri və onların birləşmələrini dünyəvi ünsiyyətdə birləşdirən norma və prinsiplərin məcmusundan ibarət **beynəlxalq qanunvericilik**;

- ayrıca dövlətin hüquq mənbələrinin tarixən təşəkkül tapmış məcmusunu özündə ehtiva edən **dövlətdaxili qanunvericilik.**

Ümummilli qanunvericilik müxtəlif ölkələrdə kifayət qədər geniş həcmdə interpretasiya edilir. O cümlədən, qitə (Avropa) hüququnun eyniləşdiricisi olan Almaniya kimi dövlət ümummilli qanunvericiliyə beynəlxalq hüququn mühümqanunvericilik aktlarını, əyalətlərin normativ-hüquqi aktlarını və maddi xarakterli qanunları (qanunqüvvəli aktlar da daxil olmaqla, ümumi xarakterli mühüm hüquqi göstərişləri) daxil edir. Böyük Britaniyanın – hüquq sistemlərinin ingilis-amerikan qrupunun hüquqi mövqelərini müəyyən edən ölkənin qanunvericiliyinə isə parlamentin qanunvericilik aktlarından və hökumətin icazə verilən qanunvericiliyindən, habelə Avropa İttifaqının qanunvericilik aktlarından ibarət olan ənənəvi qanunvericilik daxil edilmişdir.

**Qanunvericiliyin sistemi və onun elementləri**. Qanunvericilik hüququn forması və onun inkişafının prinsipial mənbələrindən biridir. Onun sosial həyatın və dövlət həyatının müəyyən sahələrini tənzimləyən normativ-hüquqi aktlarının qarşılıqlı əlaqədə olan məcmusu kimi sistemi isə ölkənin normativ kütləsini təsəvvür etməyə imkan verir.

**Qanunvericilik sisteminin əsas elementləri** normativ-hüquqi aktlardan və bu aktları təşkil edən komponentlərdən, institut və sahələrdə toplanmış normativ-hüquqi aktlardan ibarətdir. İnstitut və sahələr hüququn müvafiq institut və sahələrinə uyğun gələn **eyniadlı** (mülki hüquq, ailə hüququ, inzibati hüquq, cinayət hüququ və s.), **kompleks** (təhlükəsizlik və hüquq qaydasının mühafizəsinə dair qanunvericilik) və ya **xüsusi** (məsələn, müdafiə üzrə) hüquq sahələri və hüquq institutlarından ibarət ola bilər.

Qanunvericilik sistemi öz xarakteristikası və hüquqda (hüququn sistemi, hüquq sistemi) sistemliliyin digər növlərindən fərqli cəhətlərinə görə aşağıdakılarda təzahür edir:

1) hüququ tətbiq edənin iradə və maraqlarını, onun tələbatlarını əks etdirdiyinə görə, öz düzülüşündə **subyektivdir**;

2) müəyyən istiqamətli normativ-hüquqi aktlar haqqında hüquqi informasiyanın daşıyıcısıdır;

3) bunun da nəticəsində o, hüququ tətbiqetmə fəaliyyətində növbəti istifadə üçün belə istifadəyə və onun qorunub saxlanmasına ehtiyacı olan **səlahiyyətli orqanların fəaliyyətinin nəticəsi olur;**

4) beləliklə, qanunvericilik sistemi üçün **xidməti təyinat** səciyyəvidir. Qanunvericilik sistemi bu xidməti təyinat çərçivəsində dövlət strukturları da nəzərə alınmaqla və dövləti idarəetmənin xüsusiyyətləri çərçivəsində normativ-hüquqi aktların (onların hüquqi qüvvəsinəgörə) iyerarxiyasını müəyyənləşdirir.

Azərbaycan Respublikasının qanunvericilik sistemini dövlət başçısının fərmanı ilə təsdiq edilən hüquqi aktlar təşkil edir.

**Qanunvericiliyin sistemləşdirilməsi və onun növləri**. Həqiqətən də, ölkənin ümumi qanunvericiliyi müxtəlif tarixi dövrlərdə və müxtəlif dövlət formalarında qəbul edilmiş qanunvericilik aktlarının nəhəng kütləsindən ibarətdir. Bu da müvafiq surətdə onların qaydaya salınmasını, uçotunun aparılmasını və müəyyən təsnifatlar əsasında birləşdirilməsini tələb edir. Qanunvericiliyin sistemləşdirilməsi bu vəzifələrə uyğun olmalıdır.

**Qanunvericiliyin sistemləşdirilməsi** dedikdə, dövlət orqanlarının və hüququn digər subyektlərinin normativ-hüquqi aktların qaydaya salınması və vahid qaydada razılaşdırılmış sistemə salınması üçün məqsədyönlü fəaliyyəti başa düşülür.

Bu prosesin nəticəsində mahiyyət etibarilə hamı qanunvericiliyin real vəziyyəti bilməsinin zəruri olduğunu hesab edən qanunvericidən, fəaliyyəti birbaşa hansı qanunlara və digər aktlara müraciət etməkdən asılı olan hüququ tətbiq edəndən başlamış hüquq mədəniyyətinin səviyyəsi qüvvədəolan qanunlara əsaslanan vətəndaşlara qədər maraqlıdır. Yəni qanun və digər normativ-hüquqi aktlar hamı – həm qanunverici, həm də vətəndaşlar tərəfindən eyni səviyyədə mənimsənilməli və dərk edilməlidir. Qanunvericinin də, vətəndaşların da hüquq mədəniyyəti səviyyəsi bununla ölçülür. Qanunları bilmək, onları dürüst və olduğu kimi icra etmək, qanunlara hər yerdə və hamı tərəfindən eyni cür və ciddi şəkildə əməl etmək bütövlükdə cəmiyyətin hüquq mədəniyyəti səviyyəsinin başlıca göstəricisi, hüquq mədəniyyətinin özününqiymətləndirilməsinin əsas meyarıdır.

Qanunvericilik sistemləşdirilərkən aşağıdakıların gerçəkləşdirilməsi tövsiyə olunur:

1) normativ-hüquqi aktlar, yaxud onların köhnəlmiş və ya səmərəsiz olan, eləcə də dövrün tələbatlarına cavab verməyən hissələri ləğv olunur;

2) qüvvədə olan hüquq normalarının məzmunuzda mövcud olan ziddiyyətlər aradan qaldırılır;

3) zəruriliyi cəmiyyət həyatının inkişafı üçün və hüquqi əhəmiyyət kəsb edən situasiyaların həlli tələbatları ilə şərtləşən normaların olmadığı zaman normalarda nəzərə çarpan boşluqların yeri doldurulur;

4) normativ müddəalara dövrün tələblərinə uyğun əlavə və dəyişikliklər edilir;

5) müxtəlif səviyyələrdə (milli, regional, yerli, lokal) hüquq normaları arasında mövcud olan hüquqi kolliziyalar həll edilir;

6) hüquqi reallıqların tələb etdiyi və hüquqi gerçəkliklərə uyğun gələn yeni normativ-hüquqi aktlar qəbul olunur;

7) səciyyəvi əlamətlərin, quruluş və gerçəkləşdirmə metodlarının, üsul vasitələrinin aşkar edilməsi əsasında normativ-hüquqi aktların müxtəlif qrupları qaydaya salınır;

8) nəticə kimi normativ-hüquqi aktların sabitlik, tamlıq, mümkünlük və əlverişli istifadə üçün yararlılıq keyfiyyəti ətraflı nəzərdən keçirilir və bu keyfiyyətə xas olan qarşılıqlı surətdə razılaşdırılmış və dürüst sistem, düzüm ardıcıllığı formalaşdırılır və s.

Məsələn, hazırda Amerikanın Weslaw və Lexis/Nexis, Almaniyanın Juris və ya Rusiyanın "Qarant" və "Konsultant plyus" hüquqi informasiyalı sistemi çox geniş yayılmışdır. Belə bir sistemin Azərbaycanda da yaradılmasını biz də arzu edərdik.

Sistemləşdirmənin birlik tərəfindən məzmunlarında dəyişiklik edilmədən və vahid buraxılış kimi yenidən işlənən normativ aktların xüsusi qaydada təqdim edilən qanunvericiliyin inkorporasiyası kimi klassik növlərinə müraciət tələb olunur.

Rəsmi və ya qeyri rəsmi qaydada tərtib edilən qanunlar və tematik əsaslı digər normativ-hüquqi aktlar toplusu, müəyyən hüquqyaratma orqanlarının xronologiyaya əsaslanan bülletenləri, dövlətin ali hakimiyyət orqanlarının normativ-hüquqi aktların nəşri kimi qanunvericilik topluları inkorporasiya nəşrlərinə aid edilir.

İnkorporasiyalaşdırılmış nəşrlər içərisində **qanunlar (qanunvericilik) külliyyatı** xüsusi yer tutur. Qanunlar külliyyatı (QK) rəsmi sistemləşdirmə kimi qüvvədə olan ümumdövlət əhəmiyyətli normativ-hüquqi aktların predmet əlaməti üzrə nəşr edilən tam toplusudur. O, rəsmi nəşr mənbəyindən ibarətdir və əhəmiyyətli qanunyaradıcılıq işinin nəticəsi qismində təzahür edir.

Sabit qanunvericiliyə malik bir çox dövlətlər, bir qayda olaraq, öz tarixinə malik (məsələn, Justinianın Qanunlar Külliyyatı) qanunlar külliyyatına malikdirlər və həmin külliyyatlar bir neçə onilliklər ərzində qüvvədəolmuş, onlardan başqa ölkələr də faydalanmışdır. Məsələn, Amerikanın federal qanunvericiliyi toplanmış və ABŞ-ın Qanunlar Külliyyatı halında sistemləşdirilmişdir. Həmin Külliyyat 50 bölmədən ibarətdir. Hər bir bölmə hüququn müəyyən sahəsinə və nəhəng hüquq institutlarına həsr edilmişdir. Qeyd etmək lazımdır ki, verilmiş yeni qanunvericilik aktlarının vaxtında sistemləşdirilməsinin təmin edilməsi məqsədi ilə QK-lar hər 6 ildən bir yenidən nəşr olunur. ABŞ Konqresi növbəti qanunu qəbul edərkən bu aktın Külliyyatda hansı yeri (bölməni) tutmalı olduğunu və qüvvədəolan Külliyyatın bölməsinə, fəslinə və yarımfəsillərinə hansı dəyişikliklərin edilməsinin zəruriliyini də göstərir.

**İnkorporasiya** – bu, qanunvericilik materialının sistemləşdirilməsi, onun zahirən qaydaya salınması prosesinin ən sadə formasıdır. Burada ancaq redaksiya və texniki xarakterli dəyişikliklərə (o cümlədən qanunun mətnində tipoqrafik və ya linqvistik səhvləri aradan qaldırılır, qanunun öz hüquqi qüvvəsini artıq itirmiş hissələri mətndən çıxarılır, zaman-zaman edilmiş əlavə və dəyişikliklər xaric edilir, normativ-hüquqi aktları təsdiq edən imzalar buraxılır) yol verilir.

İnkorporasiya prosesinin subyektlərindən asılı olaraq, qanunvericiliyin inkorporasiyasının aşağıdakı növləri fərqləndirilir:

1) müvafiq qanunları qəbul edən qanunvericilik orqanının adından həyata keçirilən **rəsmi inkorporasiya;**

2) parlamentin tapşırığı ilə digər dövlət orqanları tərəfindən həyata keçirilən, lakin onun rəsmi bəyannaməsi bəyan edilmədən dərc olunan **yarımrəsmi inkorporasiya;**

3) xüsusi tapşırıq və hüquqyaratma orqanının nəzarəti olmadan hüququn digər subyektləri (elmi müəssisələr, nəşriyyatlar, müəlliflər kollektivi, ayrı-ayrı şəxslər) tərəfindən onların öz təşəbbüsü ilə gerçəkləşdirilən **qeyri-rəsmi inkorporasiya.**

**Qanunvericiliyin birləşdirilməsi** qarşılıqlı əlaqəli məsələlərə dair verilən normativ-hüquqi aktların məcmusunun məzmunu dəyişdirilmədən (lakin mümkün təkrarların, ziddiyyətlərin aradan qaldırılması və köhnəlmiş müddəaların yeni redaksiyasında) vahid iriləşdirilmiş aktda birləşdirilməsi yolu ilə aparılır.

Qanunvericiliyin birləşdirilməsi prosesi nəticəsində qəbul edilən yeni qanun özündə ehtiva olunan və öz müstəqil hüquqi əhəmiyyətinə malik olan normativ-hüquqi aktları bütünlüklə əvəz edir. O, qanunvericilik aktları üçün müəyyən edilən qaydalara əməl edilməklə qəbul olunur, öz hüquqi qüvvəsinə və özünün rəsmi rekvizitlərinə malik olur.

İstər qitə, istərsə də ümumi hüquq ailəsinə daxil olan ölkələrin hüquqyaratma fəaliyyətində qanunvericiliyin birləşdirilməsindən kifayət qədər geniş istifadə edilir. Məsələn, Fransada hüquqi tənzimetmənin ayrı-ayrı sferaları da – yol nəqliyyatı, parlament və bələdiyyə seçkiləri, fiskal vergi prosedurlarında, istehlak, idman sahəsində və s. sahələrdə birləşdirilmiş qanunvericilik aktlarının (məcəllələrin) buraxılışı praktikasından tez-tez istifadə edilir. İngiltərədə əvvəlki statutların və presedentlərin (presedent hüququnun) bu və ya digər institutlarının normalarını birləşdirən qanunvericilik aktlarına üstünlük verilir. Digər tərəfdən birləşdirilmiş qanunvericilik aktlarından istifadə hüquq-mühafizə orqanları əməkdaşlarının fəaliyyətində onların işlərinin asanlaşdırılmasına kömək edir. Belə ki, müəyyənbir sferada baş vermiş hadisənin ayrı-ayrı normativ-hüquqi aktlarla tənzimlənməsi zərurəti yarandığı hallarda, məhz birləşdirilmiş qanunvericilik həmin ehtiyacı aradan qaldırır.

**Qanunvericiliyin məcəlləşdirilməsi**. Qanunvericiliyin məcəlləşdirilməsi rəsmi olaraq xüsusiləşdirilmiş, ümumiləşdirilmiş, daxilən birləşdirilmiş normativ-hüquqi aktın yaradılması (məcəlləyə, nizamnaməyə, qanunvericilik əsaslarına daxil edilməsi) yolu ilə qüvvədə olan qanun-

vericiliyə qanunyaratma prosesi vasitəsi ilə mühüm dəyişikliklər edir.

Məcəlləşdirmə prosesində əvvəllər meydana çıxmış narazılıqlar, lüzumsuz əvəzetmələr, ziddiyyətlər və boşluqlar aradan qaldırılır, köhnəlmiş və öz səmərəliliyini itirmiş keyfiyyətsiz normativ göstərişlər, hissələr və ya bəndlər maddələrin mətnindən çıxarılmaqla ləğv olunurlar.

## NƏTİCƏ

Yeni qanunvericilik aktı artıq ömrünü başa vurmuş böyük sayda əvvəlki normativ-hüquqi sənədləri əvəz etməklə bir qayda olaraq, hüquqi tənzimetmədə keyfiyyət dəyişikliklərinin meydana gəldiyini təsbit edir. Bu da öz növbəsində qanunvericinin hesablamalarının (cəmiyyətdə baş vermiş dəyişikliklərin nə dərəcədə diqqət mərkəzində salınmasından (nəzərə alınmasından asılıdır. Ona görə də məcəlləşdirmə qanunvericiliyin sistemləşdirilməsi iyerarxiyasında ən yüksək pillədə duran prosesdir.

Məcəlləşdirilmiş normativ-hüquqi aktların həcmindən asılı olaraq, aşağıdakılar fərqləndirilir:

1) hüququn bütün sahələrinin və ya ölkənin bütün qanunvericilik cəbbəxanasını əhatə edən **ümumi** (baş) məcəlləşdirmə;

2) eynicinsli hüquq münasibətlərinin nəhəng sahələrində dəyişikliklər edilməsi zərurətindən irəli gələn kollektiv məcəlləşdirmə;

3) qanunvericiliyin ayrıca götürülmüş konkret bir sahəsində hüquq normalarına şamil edilən **sahəvi** məcəlləşdirmə;

4) ayrıca və ya bir neçə hüquq institutunun hüquq normalarının birləşdirilməsinə yardım edən **xüsusi** məcəlləşdirmə.

Beləliklə, qanunvericiliyin sistemləşdirilməsi dövlətin hüquq siyasəti sahəsində qarşıya qoyduğu mühüm ümumdövlət əhəmiyyətli tədbirlərdən biri olmaq etibarilə bütövlükdə ölkənin hüquq sisteminin və qanunvericilik sisteminin inkişafına və daha da təkmilləşdirilməsinə xidmət edir.

## ƏDƏBİYYAT SİYAHISI
## *(References)*

1. Марченко М.Н. Источники права: Учебное пособие. М., Проспект, 2012.
2. Нисневич Ю.А., Плантонов В.М., Слизовский Д.Е. Законадательная деятельность. М., 2007.
3. Лукьянов Е.Г. Учения о законе. М., Норма: Инфра-М, 2014.
4. Azərbaycan Respublikasının Konstitusiyası. B., 2016